**UOT 3.32**
**https://doi.org/10.59849/2710-0820.2026.1.304**

**Hümeyrə Mustafayeva**
*Bakı Mühəndislik Universitenin "Ümumi fənlər"kafedrasının müdiri,*
*dosent, fəlsəfə üzrə fəlsəfə doktoru*
*ORCID: https://orcid.org/0000-0001-9656-5783*
*hmustafayeva@beu.edu.az*

# MÜASİR MƏRHƏLƏDƏ DEMOKRATİK TRANSFORMASİYA PROBLEMLƏRİ: TƏCRÜBƏ VƏ PERSPEKTİVLƏR

***Açar sözlər***: *demokratiya, avtoritar rejim, siyasi transformasiya, azad seçkilər, siyasi sistemlər, siyasi azadlıqlar*

## Giriş

Son dövrlərdə siyasi rejimlərin təhlilinə həsr olunan akademik araşdırmalarda və demokratiyanı tədqiq edən V-Dem (Varieties of Democracy) İnstitutu, BTİ (Bertelsmann Transformation İndex), EİU (Economist İntelligence Unit) kimi məşhur beyin mərkəzləri və təşkilatların hesabatlarında dünya üzrə demokratiyada geriləmələr, avtoritar meyillərin güclənməsi ilə bağlı fikirlər səsləndirilir. Bu tədqiqat işində iddia olunur ki, dünyada demokratiyanın geriləməsi baş vermir, belə bir fikrin formalaşmasına səbəb isə "demokratiyanın üçüncü dalğası" adlandırılan dövrdə bir sıra rejim dəyişikliklərinin yanlış olaraq demokratiyaya keçid kimi qiymətləndirilməsidir. Bu iddianı sübut etmək üçün XXI əsrdə dünyanın bir çox hissəsində baş vermiş siyasi transformasiyalar təhlil edilir. Təhlil demokratiyanın fundamental göstəricilərindən sayılan seçkilər və medianın fəaliyyətində baş verən dəyişikliklərin araşdırılmasına əsaslanır. Qeyd edilən göstəricilərin təhlili siyasi rejimlərin demokratiyaya transformasiyasının hansı kriteriyalarla müəyyənləşdirildiyini, son dövrdə bu kriteriyalarda hansı deformasiyaların baş verdiyini anlamağa imkan verəcək. Bu təhlil keçən əsrin sonlarında qeyri-demokratik rejimlərdən demokratiyaya keçdiyi iddia olunan bir sıra Cənubi Amerika, Afrika, Şərqi Avropa və Asiya dövlətlərində siyasi hakimiyyətin demokratik institutların çətiri altında avtoritaritar idarə isüulunu möhkməlndirmək cəhdlərini sübut edir. Tədqiqatın məqsədi demokratiyaya transformasiya ilə bağlı problemlərin təhlili olduğu üçün demokratik transformasiyanın mənşəyi, istiqamət və inkişafı ilə bağlı tədqiqatlarda əldə edilmiş nailiyyətlər və mövcud olan boşluqlar araşdırılacaq.

"Demokratiya və ya avtoritarizm?" sualına hər bir vətəndaş qısa cavab verə bilər. Lakin "demokratiya nədir?" sualına cavab vermək o qədər də asan deyil. Demokratiyanın iki mindən çox tərifi, siyasət nəzəriyyəçiləri arasında isə demokratiyanın mahiyyəti ilə bağlı üç mübahisəli konsepsiya mövcuddur. Ortaq və ya agregative (aggregative) demokratiya tərəfdarları demokratiyanın təməl prinsipinin seçkilərə dayandığını iddia edir (Dahl Robert, Democracy and its Critics). Müzakirəçi və ya deliberativ demokratiya tərəfdarları demokratiyanın mərkəzinə seçkiləri deyil, ictimai müzakirələri qoyur (Guttman A., Dennis Thompson. Why Deliberative Democracy?). Nəhayət, radikal demokratiya konsepsiyasına görə demokratiya bərabərlik və azadlıqların radikal inkişafına əsaslanır (Dahlberg, Lincoln; Siapera, Eugenia, eds. (2007). Radical Democracy and the Internet).

Demokratiyaya keçid mexanizmlərini təhlil edən ədəbiyyatda bir neçə problem tədqiqatçılar arasında mübahisə obyektinə çevrilib. Bunlardan ən önəmlisi demokratiyaya sabit və davamlı keçidi təmin edən faktor və göstəricilərin müəyyənləşdirilməsidir. "Dövlətlər necə demokratikləşir" adlı məqaləsində Huntington demokratikləşmənin üçüncü dalğasında siyasi liderlərin hansı yollarla avtoritar idarə-üsuluna son qoyaraq demokratiyaya keçdiyinin önəmli olmasına diqqət çəkir və bu prosesdə daxili faktorların əhəmiyyətini önə çıxarır (Huntington Samuel. How Countries Democratize, p.32-33; Larry

Diamond, ‘Facing up to the Democratic Recession, p.141). Kanadalı alim Qunitskinin tədqiqatlarında isə demokratiya dalğası sistem transformasiyası kimi qiymətləndirilir. Bu konsepsiyaya görə dövlətlərin daxili siyasətinə təsir göstərən ən güclü faktor dünya siyasətində söz sahibi olan Güc dövlətinin hansı dəyərlərə sahib olmasıdır, yəni demokratiyaya keçid daha çox daxili deyil, xarici faktorlardan asılıdır. “Hegemonçu şok” adlandırılan bu xarici təsir dövlətlərin daxli institusional inkişafına ciddi təsir göstərərək legitim rejimin mahiyyətini dəyişir (Gunitsky S. From Shocks to Waves, p. 561-562). “Səhvən demokratiya: Avtokratların səhvləri azad hökumətlərə keçidi necə təmin edir” adlı məqaləsində Daniel Triesmann iddia edir ki, avtoritar hakimiyyətdən demokratiyaya keçən rejimlərin yalnız üçdə birində keçid daxili proseslərlə, məsələn, inqilabın qarşısının alınması, vətəndaşların müharibəyə səfərbər edilməsi, elitdaxili rəqabətə son qoyulması ilə şərtlənir. Demokratiyaya keçid etmiş dövlətlərin üçdə ikisində bu proses hakim təbəqənin azad seçimi nəticəsində deyil, demokratikləşmənin qarşısını almaq üçün həyata keçirilən tədbirlər zamanı hakimiyyətin zəifləməsi nəticəsində, yəni avtoritar liderlərin səhvləri üzündən baş vermişdir (Triesmann D. Democracy by mistake: p.792). Bu məqalədə qeyri-demokratik rejimlərdən demokratiyaya keçidin sosial-iqtisadi imkanlar, siyasi sistem və tarixi təcrübə kimi daxili göstəricilərdən asılı olduğu, eyni zamanda regional güc dövlətlərinin siyasi dəyərlərinin təsirinə məruz qaldığı və həmçinin siyasətçilərin şəxsi iradəsindən asılı olduğu qəbul edilir.

Qlobal demokratikləşməyə münasibətlə bağlı iki konsepsiya mövcuddur. Birinci konsepsiya azadlıq və demokratiya arasında müəyyən bir tarazlığın olduğunu qəbul edir, yəni dünyada demokratiya nə artır, nə də azalır, dünyanın bir hissəsində demokratiyaya, digər hissəsində avtoritarizmə doğru meyillər güclənir (Steven Levitsky S. and Way L. Competitive Authoritarianism) İkinci konsepsiyanın tərəfdarları isə 21-ci əsrdən başlayaraq demokratiyanın staqnasiya dövrünə qədəm qoyduğunu və nəzərəçarpacaq dərəcədə gerilədiyini iddia edir (Waller J. Disentangling Authoritarianism; Thomas Carothers, “The End of the Transition Paradigm”). Demokratiyadan geriləmələrin üsulları, metodları ilə bağlı tədqiqatçılar arasında ümumən konsensus mövcuddur. Siyasi rejimləri tədqiq edən alimlərin əksəriyyəti bu prosesi konstitusional təminatların, demokratik institutların tədricən məhdudlaşdırılması və dağıdılması, plyuralizmin, siyasi rəqabətin, seçkilərin təhrif edilməsi və siyasi səhnəyə qeyri-liberal populistlərin gəlməsi ilə əlaqələndirirlər (Licia Cainetti and Sean Hanley, , p.66; Leonardo Arriola, Lise Rakner, p.1; Larry Diamond, ‘Facing up to the Democratic Recession,’ p.142). Siyasi rejimlərin demokratiyadan uzaqlaşaraq avtoritarizmə yuvarlanmasının səbəbləri ilə bağlı alimlər arasında ciddi fikir ayrılıqları mövcuddur. Diamonda görə demokratiyadan uzaqlaşma dörd səbəb üzündən, demokratiyanın sürətli dağılması, böyük dövlətlərdə demokratiyanın keyfiyyətinin və sabitliyin azalması, uzun demokratiya təcrübəsinə malik dövlətlərdə avtoritar meyllərin artması və inkişaf etmiş demokratik dövlətlərin, o cümlədən ABŞ-ın həm daxildə, həm də beynəlxalq aləmdə demokratiyanı zəif dəstəkləməsi nəticəsində baş verir (Larry Diamond, p.145).

Demokratikləşmənin üçüncü dalğasında rejim dəyişikliyinə məruz qalmış dövlətlərin təcrübəsini təhlil edən tədqiqatçılar demokratiyanın geriləməsini daha çox dövlətlərin keçmişi, yəni tarixi təcrübəsi ilə əlaqələndirirlər. Keçən əsrin sonlarında rejim dəyişikliyi baş vermiş Afrika dövlətlərinin təcrübəsini təhlil edən Ariolla və de Ualleye görə bu qitədə demokratiyada geriləmələr dövlətlərin uzun müddət bir partiyalı siyasi sistem və ya hərbi diktatura altında yaşaması, vətəndaş cəmiyyətinin və siyasi hərəkatların zəif olması, dövlətlərin cəmiyyətin yoxsul hissəsinin sosial vəziyyətini yaxşılaşdırmaq üçün məhdud iqtisadi imkan və resurslara malik olması və demokratiyanı dəstəkləyən xarici yardımın nəzərəçarpacaq dərəcədə azalmasıdır (Arriola, Rakner, and van de Walle. Democratic Backsliding in Africa? p. 10–12). Keçmiş sosialist blokuna daxil olan dövlətlərdə demokratiyanın geriləməsinin üç əsas səbəbi qeyd edilir. Bunlara keçid dövründə mövcud olmuş rejimin xüsusiyyətləri, beynəlxalq təsir və qanunvericilik və ya siyasi ənənələr daxildir (Popova, M., 2012. Politicized Justice in Emerging Democracies; Krygier, M., 1999). Beləliklə, akademik dairələrdə “demokratiyanın üçün-

cü dalğası" adlandırılan mərhələdə rejim dəyişikliyi baş vermis dövlətlərdə avtoritar meyllərin güclənməsinin üç əsas səbəbinin, keçmiş tarixi təcrübə, beynəlxalq təsir və demokratiyanın dəstəklənməsi üçün yardımın azalması və ya tamamilə kəsilməsinin önə çəkildiyini söyləyə bilərik.

Bu məqalədə demokratiyanın zəifləməsi ilə bağlı formalaşmış konsepsiyalara qarşı iddialarımız üç mərhələdə əsaslandırılacaq. İlk olaraq demokratiyanın nə üçün önəmli olması sualına cavab veriləcək və bunun üçün demokratiyanın kriteriyalarına nəzər salınacaq, sonra isə demokratiyaya keçidin əsas göstəricilərindən hesab edilən seçkilər və medianın bu proseslərdə rolu dəyərləndiriləcək və demokratik institutlar çətiri altında avtoritar meyllərin tədricən necə gücləndiyinə aydınlıq gətiriləcək. Nəhayət, sonda avtoritar meyllərin gücləndirilməsinə təsir göstərən daxili və xarici faktorlar təhlil ediləcək.

***Tədqiqat Şərqi Avropada, Cənubi Amerikada və elmi ədəbiyyatda "qlobal cənub" adı ilə tanınan Afrikada mövcud olan dövlətlərin təcrübəsinə söykənir.***

## *DEMOKRATİYA NƏ ÜÇÜN ÖNƏMLİDİR*

Demokratiyanın hansı səbəbdən dəyərli və əhəmiyyətli olduğunu göstərmək üçün Hantinqton məşhur "Üçüncü dalğa" əsərində onu avtoritarizmə qarşı qoyur və bu müqayisədə rəqabətli seçkiləri ön plana çıxarır (Huntington. The Third Wave, p.6). Seçkilərin əhəmiyyəti əhalinin böyük hissəsinin siyasi iradəsini ifadə etmək imkanı, yəni cəmiyyəti kimin idarə edəcəyini cəmiyyətin özünün müəyyənləşdirməsi mümkünküyü ilə izah olunur (David Van Reybrouck, Against Elections: The Case for Democracy). Rəqabətli, açıq seçkilərin keçirilməsi demokratiyanın digər institutlarının, azad media, vətəndaş cəmiyyəti və məhkəmənin müstəqilliyini, insanların fundamental azadlıqlarının, söz, toplaşma və fikir azadlığının təmin edilməsini vacib edir. Bu institutlar olmasa seçkilərin rəqabətli, ədalətli və şəffaf keçirildiyini sübut etmək mümkün deyil. Demokratiyanın daxili dəyəri adlandırılan seçkilər iki mühüm faktoru, qanunun aliliyini və məhkəmələrin icraedici və qanunverici hakimiyyətdən müstəqilliyini təmin edir (Sen Amartya, 'Democracy as a Universal Value). Bu göstəricilər hakimiyyəti, səlahiyyət, maliyyə imkanları, dini, dili və sosial mənsubiyyətindən asılı olmayaraq hər bir kəsin qanun qarşısında bərabər olduğunu təmin edir. Seçkilərin əhəmiyyəti hakimiyyətdən sui-istifadə edən siyasi liderlərin növbəti ədalətli, şəffaf seçki nəticəsində hakimiyyətdən məhrum edilməsi imkanı ilə artır.

Demokratiyanı önəmli edən digər mühüm göstərici onun dövlətin və cəmiyyətin iqtisadi inkişafı ilə bilavasitə əlaqəli olmasıdır. Amerikalı alim Amartya Sen "Demokratiya ümumbəşəri dəyər kimi" məqaləsində daha az avtoritar olan dövlətlərlə müqayisədə Çin, Sinqapur, Şimali Koreya kimi "nizam-intizamlı" dövlətlərin iqtisadi inkişafının daha sürətli olduğunu iddia edən "Lee fərziyyəsini" rədd edir, siyasi və vətəndaş hüquqlarını tapdalayan hökumətlərin iqtisadiyyatı daha bacarıqla yönəltdiyini sübut edən dəlillərin olmadığını vurğulayır (Sen, p.6).

Demokratik və qeyri-demokratik rejimlərin iqtisadiyyatını müqayisəli təhlil edən araşdırmalarda demokratiyaya keçid və demokratik institutların güclənməsi ilə dövlətlərdə adambaşına düşən ÜDM artımı arasında birbaşa əlaqənin olduğu təsdiq edilir (Elias Papaioannou, Gregorios Siourounis, p.1533). Demokratiyanın azad bazar rəqabətinə əsaslanan iqtisadi inkişafı təmin etdiyi, sosial sabitlik və sosial yüklü sistemin yaradılması üçün daha əlverişli imkanlar yaratdığı bir çox tədqiqatlarda sübut olunub (Acemoglu, Daron, Suresh Naidu, Pascual Restrepo; Luo, Zhaotian and Adam Przeworski; Georgy Egorov, Konstantin Sonin. The Political Economics, p.40). Alimlər demokratik rejimlərin iqtisadi və sosial uğurlarının hökumətin hesabatlılığı və fəaliyyət şəffaflığı nəticəsində mümkün olduğunu düşünürlər. "Diktatorluq və Demokratiyanın iqtisadi mənşəyi" adlı əsərin müəllifləri iddia edirlər ki, inklyuziv iqtisadi institutların mövcudluğu sabit iqtisadi inkişafa təkan verən bir çox göstəricilərin, mülkiyyət hüququnun qorunması, hər bir vətəndaş üçün bərabər iqtisadi fəaliyyət imkanlarının yaradılması, monopoliyanın qarşısının alınması və hökumətlərin hesabatlılığının təmin edilməsi hesabına mümkün olur ki, bunlar qeyri-demokratik rejimlərə yaddır (Acemoglu Daron).

Demokratiyanı önəmli edən digər xüsusiyyəti konstrutktiv adlandırılan dəyərləri, yəni siyasi hüquqları və vətəndaş azadlıqlarını tanıması, qoruması və möhkəmləndirməsidir. Lakin məlumdur ki, insanların və cəmiyyətlərin söz və siyasi azadlıqlarını ifadə etməsi üçün ictimai məkana ehtiyacları var. Çox zaman demokratiyanı tədqiq edən (Freedom House, İnsan İnkişafı Hesabatı, Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı) beynəlxalq təşkilatlar siyasi azadlıqlar üçün ictimai məkanların mövcudluğunu mühüm demokratik göstərici kimi qəbul edirlər. Cəmiyyətin bütün üzvlərinin iştirak edə biləcəyi, istək və arzularını ifadə edə biləcəkləri sosial məkanın mövcudluğu həm hakimiyyətlə cəmiyyət arasında dialoqun təşkili, həm də informasiya mübadiləsi və ümumi dəyər və prioritetlərin müəyyən edilməsi üçün əhəmiyyətlidir. Müasir dövrümüzdə dördüncü sənaye inqilabı, informasiya texnologiyalarının sürətli inkişafı, sosial medianın genişlənən imkanları və süni intellekt siyasi problemlərin müzakirəsi üçün zəruri olan ictimai məkanı olduqca genişləndirib. Tədqiqatçıların əksəriyyəti informasiya texnologiyalarının etiraz əhval-ruhiyyəsinin artırdığını, söz azadlığı imkanlarını genişləndirdiyini və siyasi rejimlərə təsir mexanizmlərini gücləndiyini iddia edirlər (Edmond, C. (2013); Little, A. T. (2016); Barbera, S., and M. Jackson (2016)).

**Nəticə**

Demokratiyanın müqayisəli təhlilinə əsaslanan geniş akademik ədəiyyatda demokratiyanın önəmli olması daxili, instrumental və konstruktiv dəyərlər sisteminin mövcudluğu ilə əsaslandırılır. İstənilən rejimin demokratiyaya keçidi məhz bu dəyərlərin mövcudluğu ilə müəyyənləşdirilə bilər. Lakin bu dəyərlərin mahiyyətinin nədən ibarət olması və onların dərəcəsinin müəyyənləşdirilməsi ilə bağlı vahid nəzəri konsepsiya mövcud olmadığından demokratiyaya keçdiyi ehtimal olunan siyasi rejimlərin dəyərləndirilməsi də fərqlidir. Keçən əsrin sonlarında rejim dəyişikliyinə məruz qalmış dövlətlərin demokratiya yolunu seçdiyi hansı göstəricilərlə əsaslandırılmışdı .

## ƏDƏBİYYAT


**Acemoglu, Daron**, Suresh Naidu, Pascual Restrepo and James A. Robinson (2019): Democracy Does Cause Growth." Journal of Political Economy 127 (1):47 p.100.

**Salvador, Barberà Sàndez** and Jackson, Matthew O., A Model of Protests, Revolution, and Information (October 2019). Available at SSRN: https://ssrn.com/abstract=2732864 or http://dx.doi.org/10.2139/ssrn.2732864 (last access: 2024-01-10)

**Salvador, Barbera**, and Matthew O Jackson (2017): "A Model of Protests, Revolution, and Information," Quarterly Journal of Political Sciences, Vol.15, İssue 3, pp.297-335.

**Callaghy, Thomas** M. (1991): Africa and the world Economy: caught between a rock and a hard place. In: Harbeson, John W., Rothchild, Donald (Eds.), Africa in
World Politics. Westview Press, Boulder.

**Carothers, Thomas** "The End of the Transition Paradigm," Journal of Democracy 13 (January 2002): 5–21

**Carothers, Thomas** and Brown, Frances Z. Democracy Policy Under Biden: Confronting a Changed World. Carnegie Endowment for International Peace: 2024.

Freedom in the World, 2023, https://freedomhouse.org/sites/default/files/2023-03/FIW_World_2023_DigtalPDF.pdf. (last access: 2024-02-10)

**Claassen, Christopher** (2020): Does Public Support Help Democracy Survive?, American Journal of Political Science, Vol.64, İssue 1, pp.118-134.Desilver Drew Despite global concerns about democracy, more than half of countries are democratic. Pew Research Center, May 14. 2019, https://www.pewresearch.org/short-reads/2019/05/14/more-than-half-of-countries-are-democratic/ (last access: 2024-02-10)

**Diamond, Larry** (2015): 'Facing up to the Democratic Recession,' Journal of Democracy 26, no. 1 142.

**Donner, Sabine** (2020): BTI 2020 | Resistance to democratic regression and authoritarian rule is growing. Global Findings Democracy. Gütersloh: Bertelsmann Stiftung

**Edmond, Chris** (2013): “Information Manipulation, Coordination, and Regime Change”, Review of Economic Studies, 80 (4), 1422–1458.

Egorov, Georgy, Sonin, Konstantin. The Political Economics of Non-Democracy. NBER WORKING PAPER SERIES. October 2020, p.40

**Enikolopov, Ruben**, Korovkin, Vasily, Petrova, Maria, Sonin, Konstantin and Zakharov, Alexei. Field experiment estimate of electoral fraud in Russian parliamentary elections. Proceedings of the National Academy of Sciences of the United States of America. Vol.110, No.2, January 2013, pp.448-452

Freedom in the World, 2023, https://freedomhouse.org/sites/default/files/2023-03/FIW_World_2023_DigtalPDF.pdf (last access: 2023-12-10)

**Freeland, Chrystia** (2000) Sale of the Century: Russia's Wild Ride from Communism to Capitalism. New York: Crown Business

**Fukuyama, Francis** (1989). "The End of History. The National İnterest (16):3–18.

**Kaya, Ruchan** and Michael, Bernhard (2013): Are Election Mechanisms of Authoritarian stability or democratization? Evidence from post-communist Eurasia. Perspectives on Politics. Vol.11, No.3, September, pp.734-752

**Kopecek, Lubomír** (2010): Dealing with the communist past: Its role in the disintegration of the Czech Civic Forum and in the emergence of the Civic Democratic Party. In Communist and Post-Communist Studies 43, 199–208.

**Krygier, Martin** (1999): Institutional optimism, cultural pessimism, and the rule of law. In: Krygier, M., Czarnota, A. (Eds.), The Rule of Law after Communism. London: Routledge

**Huntington, Samuel P.** (1991) The Third Wave: Democratization in the Late Twentieth Century. Norman: University of Oklahoma Press

**Huntington, Samuel P.** (2009): How Countries Democratize. Political Science Quarterly. Vol. 124, No. 1, Spring, pp. 31-69

**Myagkov, Mikhail**, Ordeshook P., Shakin D. (2009): The Forensics of Election Fraud Cambridge: Cambridge Univ Press

**Marek N. Posard**, H. Reinger, TODD C. HELMUS. Countering Foreign Interference in U.S. Elections. March 29 2021, https://www.rand.org/content/dam/rand/pubs/research_reports/RRA700/RRA704-1/RAND_RRA704-1.pdf (last access: 2024-01-15)

**Levitsky, Steven, Way, Lucan A.** (2002); Election without democracy: the Rise of Competitive Authoritarianism. Journal of Democracy 13 (2), 51-65

**Licia Cainetti and Sean Hanley** (2021): ‘The End of the Backsliding Paradigm,’ Journal of Democracy 32, no. 1, 66

**Little, Andrew T.** (2016): “Communication Technology and Protest,” Journal of Politics, 78 (1), 152–166.

**Patrucic, Pete Jones, Vyacheslav Abramov, and Miranda.** World Leaders on Pegasus List Include France’s President Macron, Morocco’s King Mohamed, Kazakhstan President. OCCRP.

https://www.occrp.org/en/the-pegasus-project/world-leaders-on-pegasus-list-include-frances-president-macron-moroccos-king-mohammed-kazakhstans-president-tokayev (last access: 2024-02-10)

**Popova Maria** (2012): Politicized Justice in Emerging Democracies. A Study of Courts in Russia and Ukraine. Cambridge University Press, Cambridge

**Silitski, Vitali** (2010): “Survival of the fittest:” Domestic and international dimensions of the authoritarian reaction in the former Soviet Union following the colored revolutions. Communist and Post-Communist Studies, Vol.43, İssue 4, p.339-350

**Vachudova, Milada** (2005): Europe Undivided: Democracy, Leverage, and Integration after Communism. London: Oxford University Press,

Waller Julian G. (2022): Disentangling Authoritarianism and Illiberalism in the Context of the Global System. Journal of International Affairs, Vol. 75, No. 1, (Fall/Winter), pp. 33-54

Wike, Richard., Schumacher, Shannon. Satisfaction with democracy. https://www.pewresearch.org/global/2020/02/27/satisfaction-with-democracy/. (last access: 2024-02-11).

## Summary

**Humeyra Mustafayeva**

### Problems of democratic transformation ın the modern stage: experience and perspectives

International organizations studying democracy often consider the availability of public spaces for political freedoms as an important democratic indicator. Recent academic studies analyzing political regimes, as well as reports from renowned think tanks and organizations such as V-Dem (Varieties of Democracy), ITU (Bertelsmann Transformation Index), EIU (Economist Intelligence Unit) that study democracy, have expressed authoritarian views on the increasing trends of democratic decline around the world. This study argues that there is no decline in democracy in the world, and that the reason for the view that democracy is declining is that a series of regime changes during the so-called 'third wave of democracy' have been mistakenly assessed as transitions to democracy. The study analyses the problems of transformation that occurred in the political systems of several South American, African, Eastern European, and Asian states that supposedly moved from non-democratic regimes to democracy at the end of the last century. It finds that, on a global scale, the role of advanced communication technologies and democratic regimes themselves in threatening democracy is striking.


***Keywords:*** *democracy, authoritarian regime, political transformation,political systems, political freedoms, free elections*


## Резюме

**Хумейра Мустафаева**

### Проблемы демократической трансформации на современной арене: опыт и перспективы

Международные организации, изучающие демократию, часто рассматривают наличие общественных пространств для политических свобод как важный демократический показатель. Недавние академические исследования, анализирующие политические режимы, а также отчеты известных аналитических центров и организаций, таких как V-Dem (Varieties of Democracy), ITU (Bertelsmann Transformation Index), EIU (Economist Intelligence Unit), изучающих демократию, выражают авторитарные взгляды на усиливающиеся тенденции упадка демократии во всем мире. В данном исследовании утверждается, что упадка демократии в мире нет, и что причина мнения о ее упадке заключается в том, что ряд смен режимов в ходе так называемой «третьей волны демократии» был ошибочно оценен как переход к демократии. В исследовании анализируются проблемы трансформации, произошедшие в политических системах ряда южноамериканских, африканских, восточноевропейских и азиатских государств, которые якобы перешли от недемократических режимов к демократии в конце прошлого века. Выясняется, что в глобальном масштабе роль передовых коммуникационных технологий и самих демократических режимов в угрозе демократии поразительна.


***Ключевые слова:*** *демократия, авторитарный режим, политические преобразования, политические системы, политические свободы, свободные выборы*